BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2014

UOT 347.426.42

# ZƏRƏRİN BİR NÖVÜ KİMİ MƏNƏVİ ZƏRƏRİN HÜQUQİ TƏNZİMİNİN BƏZİ PROBLEMLƏRİ

Ş.M.YUSİFOV
*Bakı Dövlət Universiteti*
*SukurYusifov@mail.ru*

*Hər bir şəxsin cəmiyyətdə şəxsiyyət kimi formalaşmasını xarakterizə edən əsas keyfiyyətlər onun şərəf, ləyaqət və işgüzar nüfuzudur. Hər bir şəxsin qeyri-əmlak xarakterli hüquqları pozulan zaman, onun mənəvi ziyanın ödənilməsini tələb etmək hüququ yaranır. Mənəvi ziyanın ödənilməsi isə müasir demokratik cəmiyyətin tələbidir. Məhz bu məqalədə mənəvi ziyanın ödənilməsi ilə əlaqədar həm nəzəriyyədə, həm də praktikada tez-tez rast gəlinən və hələ də birmənalı həllini tapmayan problemlər araşdırılır.*

**Açar sözlər**: şərəf, ləyaqət, işgüzar nüfuz, mənəvi zərər, kompensasiya

«Mənəvi ziyan» institutu Azərbaycan Respublikasının qanunvericiliyində yeni anlayışdır. Lakin bununla belə bu institutun mövcudluğu, demək olar ki, hamıya məlumdur. Bunu son zamanlar eyni işlə əlaqədar artmaqda olan məhkəmə prosesləri də sübut edir. Belə ki, hər kəs konstitusiya ilə ona verilmiş hüquqlarının müdafiəsi üçün məhkəməyə müraciəti ona vurulan ziyanın əvəzinin ödənilməsi üçün ən ədalətli yol hesab edir. Mənəvi ziyan isə hər bir şəxsin qeyri-əmlak xarakterli hüquqları pozulduğu təqdirdə ödənilməsini tələb etmək hüququ olduğu ziyan növlərindən biridir.

Mənəvi ziyanın ödənilməsi müasir demokratik cəmiyyətin tələbidir. Bununla əlaqədar olaraq, bu tədqiqatın aktuallığı və xüsusi əhəmiyyəti danılmaz faktdır. Bu mövzu nəinki nəzəri, həm də praktiki əhəmiyyət kəsb edir. Aktuallığı isə bir də onunla izah olunur ki, yalnız praktikada deyil, həmçinin nəzəriyyədə də hələ ki, birmənalı həllini tapmayan problemlər vardır. Məsələn, şəxsin əmlak hüquqlarının pozulması ilə vurulan mənəvi ziyanın ödənilməsi, hüquqi şəxslərə mənəvi ziyanın vurulmasının mümkünlüyü məsələsi, mənəvi ziyanın həcminin müəyyən edilməsi, üçüncü şəxslərə mənəvi ziyanın vurulmasının mümkünlüyü və s.

Mülki hüquq elmi öhdəlikləri 2 yerə bölür: müqavilədən və mülki hüquq pozuntusundan əmələ gələn öhdəliklər. Öhdəliklərin bu cür bölgüsünü hələ Qə-

dim Roma hüquqşünası Qay təklif etmiş və onu əsas bölgü (summa divisio) adlandırmışdır (11, 104). Qayın e.ə. II əsrdə təklif etdiyi bölgü indi də mülki hüququn əsasını təşkil edərək öz əhəmiyyətini itirməmişdir.

Müqavilə öhdəliyi bir qayda olaraq, müqavilədən əmələ gəlir, hüquq pozuntusundan əmələ gələn öhdəliyin yaranma əsasını isə qanunda göstərilən əsaslar təşkil edir (buna görə də, bu öhdəliyi bəzən qanundan əmələ gələn öhdəlik də adlandırırlar). Mənəvi ziyan bu öhdəliklərin məhz sonuncu növünə aid edilir. Çünki mənəvi ziyan hüquq pozuntusu nəticəsində vurulan ziyanın bir növüdür. Lakin mənəvi ziyan öz xarakterinə, yaranma əsaslarına və tətbiqi şərtlərinə görə bütün digər hüquq pozuntularından fərqlənir və onu hətta «spesifik hüquq pozuntusu» da adlandırmaq olar. Bu spesifikliyi anlamaq üçün ilk öncə anlayışdan və onun mahiyyətindən başlamaq və onu açmaq lazımdır.

Mənəvi ziyan anlayışının mahiyyətini açarkən onun tərkib elementlərinə nəzər salaq. Bu söz birləşməsindəki «mənəvi» sözü sifət düzəldən şəkilçi artırılaraq «mənəviyyat» isminin qısaldılmış formasıdır. Mənəviyyat sözü isə Azərbaycan dilində insanın daxili aləmi anlamına gəlir. Lakin mənəviyyat anlayışının mənasını açmağa çalışarkən şəxsiyyət və onun sosial statusu aspektindən yanaşma daha məqsədəuyğun olardı.

Şəxsiyyətin sosial statusu isə onun cəmiyyət normaları ilə müəyyən edilən obyektiv-sosioloji xarakteristikasıdır (5, 128). Lakin şəxsiyyət fenomeni hər bir halda subyektiv yanaşma tələb edir. Onu nəzərdən qaçırmamalıyıq ki, cəmiyyət ayrı-ayrı insanlardan təşkil olunub və bu amil şəxsiyyətə yanaşmada subyektivizmi artırır. Bu baxımdan mənəvi ziyan şəxsiyyətin daxili aləmini sarsıdan, ona iztirab verən ziyan kimi başa düşülməlidir. Ziyan sözü isə hər hansı itki, konkret situasiyada isə mənəvi rahatlığın itirilməsi anlamına gəlir.

Lakin mənəvi ziyan anlayışına başqa bir yanaşma da mümkündür. Belə ki, ilk dəfə olaraq SSRİ Mülki Qanunvericiliyinin Əsasları (7.6 və 131-ci maddələr) mənəvi ziyan anlayışından istifadə etdi. Bu əsaslar 1991-ci ildə qəbul olundu və o zamankı Azərbaycan qanunvericiliyi də eyni anlayışı mənəvi zərər kimi rus dilindən tərcümə edərək tətbiq etməyə başladı. Rus dilində bu anlayışın (моральный вред) əxlaqi-mənəvi zərər kimi hərfi tərcüməsini vermək olar. Belə ki, rus dilində yaxın mənaları bildirən iki anlayış vardır. Bunlardan biri «мораль», digəri isə «нравственность» anlayışlarıdır. Bəzi rus hüquqşünasları bu anlayışların nə elmi, nə də praktiki fərqini görmür, bəziləri isə fərqi onda görürlər ki, мораль normaların məcmusu, нравственность - isə bu normalara əməl olunma dərəcəsidir. Ümumiyyətlə, мораль sözü rus dilinə latın dilindən keçib. Belə ki, latın dilində əxlaq, adət, sərt qayda mənasını verən *«mos»* (cəmdə *«mores»* qədim yunan dilində olan *ethos* (etika) latın dilindəki analoqudur. Sonradan Siseron *«mos»* termini əsasında etika mənasını verən *«moralis»* anlayışını təklif etdi (Siseron onu *philosophia moralis* adlandırırdı) (14, 307).

Mənəviyyat, əxlaq məsələləri adət hüquqi ilə bağlı anlayışlardır. Bir zamanlar adətin nizamladığı məsələlər sonralar qanunlarda əks olunur. Belə olan

halda isə adət hüququ ilə qanun arasındakı nisbəti müəyyənləşdirmək lazımdır: Adətin təşəkkül tapması onun dəfələrlə təkrarlanmasıdır. Lakin bəzən adətlərin bəziləri dövlət tərəfindən etiraf olunur. Bunun nəticəsi kimi onlar dövlətin hüquq yaradıcılığında, yəni qanunda öz əkslərini tapırlar. Roma hüquqşünasları bu nisbəti belə dəyərləndirirdilər: «adətin nüfuzu böyükdür, ancaq o qanundan güclü olmamalıdır». Lakin hər bir halda adətin cəmiyyətin məhsulu olduğu qəbul olunmalıdır. Əgər mənəvi ziyan anlayışına birinci qeyd olunan yanaşmaya qayıtsaq - şəxsiyyətin sosial statusu da cəmiyyət normalarının, yəni adətlərin müəyyən etdiyi sosioloji xarakteristikasıdır. Yuxarıda qeyd olunduğu kimi, şəxsiyyətin sosial statusundan danışarkən subyektivizm anlayışmı mütləq nəzərə almaq lazımdır. Belə ki, heç də hər zaman insanların bir-birinin şəxsiyyətinə münasibəti «əxlaqın qızıl qaydası» (6, 61) çərçivəsində (başqalarına özünə arzuladığın qaydada davran) olmur. Mənəvi ziyan da məhz belə situasiyaların məhsuludur.

Azərbaycan Respublikasının XX əsrin son onilliyindən etibarən yeni iqtisadi sistemə keçidə qədəm qoyması bütün sferalarda köklü dəyişikliklərlə müşayiət olundu. Hüquq iqtisadiyyatın məhsulu olmasa da, bu iki amil, çox sıx qarşılıqlı əlaqədədirlər, bu əlaqə isə müvafiq keçidin hüquqa da təsir etməsini istisna etmir. Lakin bazar iqtisadiyyatının hüquq sahələri içərisində ən köklü dəyişikliklər doğurduğu mülki hüquqdur. Bütövlükdə götürdükdə isə, hüquqda baş verən əsas dəyişiklik Qərb ölkələrinin təcrübəsi mənimsənilməklə «insan hüquqları və onların təminatı» məsələsinin önə çəkilməsi, ictimai deyil, şəxsi mənafelərin təmin edilməsidir. Bu iki amil, demək olar ki, bütün ictimai və sosial sistemdə insanın rolunu artırır və ona öz imkanlarını azad şəkildə realizə etməyə şərait yaradır. İnsan hüquqları içərisində şəxsi hüquqlar xüsusi əhəmiyyət kəsb edir. Şəxsi hüquqların sosial dəyəri, o cümlədən onların müdafiəsi insanın cəmiyyətdə mövqeyini müəyyən etməklə həm də cəmiyyətin inkişaf səviyyəsini göstərir (15, 719). Bu dəyərlər yalnız milli deyil, beynəlxalq səciyyə daşıyır ki, 1948-ci ildə BMT-nin Baş Assambleyasının qəbul etdiyi İnsan Hüquqları Bəyannaməsi, 1966-cı ildə qəbul edilən Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt bunun ən bariz nümunəsidir. Şəxsi hüquqların kompleks tənzimlənməsindən mülki-hüquqi aspekti ayırmaq lazımdır. Bununla əlaqədar şəxsi hüquqların mülki-hüquqi tənzimlənməsinə nəzəriyyədə uzun müddət 2 yanaşma olmuşdur (15, 719). Bu yanaşmalardan birinin tərəfdarları uzun müddət hesab edirdilər ki, mülki hüquq şəxsi hüquqları tənzim etməyərək yalnız mühafizə edir. Lakin sonradan bu problemə yanaşma dəyişdi, belə ki, ədəbiyyatda qeyd olundu ki, hüquqi tənzimetməni hüquqların mühafizəsindən ayırmaq və ya onları qarşı-qarşıya qoymaq olmaz, çünki tənzimetmə hüquqların mühafizəsini nəzərdə tutur, hüquqların mühafizəsi isə müvafiq münasibətlərin tənzim olunması ilə həyata keçirilir. Lakin yeni qəbul edilən Mülki Məcəllə bu ziddiyyəti birmənalı həll etdi. Belə ki, məcəllənin 1.2 maddəsi Mülki Məcəllənin subyektlərinin əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzim etdiyini qeyd edir.

Şəxsi qeyri-əmlak hüquqları müstəsna hüquqlardır. Bu hüquqlara hamı və hər kəs əməl etməli və onları pozmaqdan çəkinməlidirlər. Müstəsna hüquqlar kimi şəxsi qeyri-əmlak hüquqları digər subyektiv hüquqlarla müqayisədə spesifik xüsusiyyətlərə malikdir. Belə ki, digər müstəsna hüquqlar üçün xarakterik olan sahiblik, istifadə və sərəncam vermə səlahiyyətləri şəxsi qeyri-əmlak hüququnda bir qədər məhdud xarakter daşıyır. Burada səlahiyyətli şəxs ona məxsus olan hüquqları öz hərəkətləri ilə həyata keçirir (məsələn, kənar şəxslərdə özünə nüfuz formalaşdırır). Bununla əlaqədar olaraq, şəxsi qeyri-əmlak hüquqları üçün 2 cür səlahiyyət xarakterikdir:

- səlahiyyətli şəxsin hamı və hər kəsdən onun hüquqlarını pozmaqdan çəkinməyi tələb etmək;
- bu hüquqların pozulduğu zaman isə qanunla müəyyən olunmuş müdafiə imkanından istifadə etmək hüququ vardır.

Bizi şəxsi qeyri-əmlak hüquqlarından tədqiq olunan iş çərçivəsində şərəf, ləyaqət, işgüzar nüfuz, şəxsi ailə sirri, hərəkət etmək azadlığı, yaşayış yeri seçmə, ad hüququ, müəlliflik hüququ, sair qeyri-əmlak hüquqları və digər nemətlər maraqlandırır.

Yuxarıda adları çəkilən hüquqlar birbaşa Azərbaycan Respublikasının Konstitusiyasında göstərildiyindən onlar konstitusion hüquqlar hesab olunur. Lakin bu hüquqların hamısını bir yerdə şəxsi həyatın toxunulmazlığı hüququnda ümumiləşdirmək olar. Uzun müddət Azərbaycanın da daxil olduğu keçmiş sosialist ölkələrində hökmran olan kommunist ideologiyası şəxsi olan hər şeyi inkar edərək qeyd edirdi ki, «biz şəxsi olanı qəbul etmirik, bizim üçün hər şey ümumidir». Bu ideya sonradan 2 böyük ictimai-iqtisadi formasiyanı qarşı-qarşıya qoyan şəxsi həyat və ictimai həyat kateqoriyalarının yaranmasının əsasını qoydu (17, 12). Belə ki, Qərbdə hesab edirlər ki, insan aktiv ictimai fəaliyyət və ya tənhalıq seçməkdə azaddır, bir sözlə, onun şəxsi həyatına hüquqları onun müstəsna səlahiyyətindədir. Demokratiya yoluna qədəm qoyduqdan sonra qəbul olunan konstitusiyamız bunu pozitiv formada 32-ci maddədə qeyd edib. Hüquq ədəbiyyatında şəxsi toxunulmazlıq hüququ dedikdə -insanların malik olduğu və dövlət tərəfindən təminat verilən özü haqqında şəxsi və intim xarakter daşıyan informasiyanın yayılmasını idarə etmək imkanı başa düşülür (2, 73-79). Bu hüquqların dövlət təminatından və bunun üçün lazım olan əsaslardan şəxsiyyətin azadlıq dərəcəsi, demokratiya və siyasi rejimin humanistliyi asılıdır (7, 15). Hüquqların təminatının ən səhih yolu isə qanunvericinin onları pozmağa görə müəyyən etdiyi məsuliyyətdir. Hüququn pozulması ziyan (zərər) doğurur. Zərər anlayışına hüquq ədəbiyyatında müxtəlif cür yanaşırlar. Belə ki, LV.Dal zərər dedikdə, əmlak və qeyri-əmlak nemətlərinin, şəxsi hüquqların qanuni, yaxud qeyri-qanuni korlanması, itirilməsi, onlara zərər yetirilməsini başa düşür (4, 1993). Digər bir hüquqşünas hesab edir ki, mülki hüquqda zərər qanunla qorunan nemətlərdə (onlar əmlak və qeyri-əmlak xarakterli ola bilərlər) baş verən xoşagəlməz dəyişikliklərdir (8, 11). Qeyri-qanuni zərər hüquq po-

zuntuşunun nəticəsidir. Hüquq pozuntusu ictimai təhlükəli, zərər yetirən, təqsirli əməldir. Zərərin yetirildiyi obyektlər fiziki şəxslərin obyektiv və subyektiv hüquqları, hüquqi şəxslərin və dövlətin maraqlarıdır. Beləliklə, zərər həm sosial, həm də hüquqi aspektlərə malikdir. Hüquq pozuntusu hər bir halda zərərçəkənin şəxsiyyətinə mənfi təsir edir (onun psixikasına zərər yetirir), əksər hallarda isə əmlaka qəsd edir. O, həmişə mənəvi (psixi, qeyri-maddi), əksər vaxt isə əmlak zərəri yetirir. Zərər hər bir halda məqsədi zərərçəkənin hüququnun müdafiəsi, zərər vuranın cəzalandırılması, hüquq pozuntusunun xəbərdar edilməsi olan hüquqi məsuliyyət doğurur (4, 32)·

Əmlak zərərinin ödənilməsi öhdəliyi heç kimdə tərəddüd doğurmur. Belə ki, əmlak məsuliyyəti ilə bağlı qanunvericilik kifayət qədər işlənib hazırlanıb və ənənəvi xarakter daşıyır. Qeyri-əmlak, mənəvi ziyana münasibət isə heç vaxt birmənalı olmamışdır. Mənəvi ziyan anlayışı həmişə müzakirə predmeti olmuşdur. Bu fikir ayrılığının mahiyyəti mənəvi ziyanın hüquqi fakt kimi qəbul olunub olunmamasındadır. Nəzəri baxımdan bu problemin üç həlli variantı ola bilər (4, 32). Mənəvi ziyanın ödənilməsinin bütünlüklə inkar olunması, yalnız bəzi hallarda mənəvi ziyanın ödənilməsinin mümkünlüyü, mənəvi ziyanın istinasız olaraq bütün hallarda ödənilməsi. Ədəbiyyatda bu variantların hər birinin öz tərəfdarları var; sonuncu variant isə ayrı-ayrı ölkələrin qanunvericiliyinin təhlili nəticəsində də ortaya çıxır.

Tanınmış rus sivilisti Belyakova ikinci variantın tərəfdarlarındandır. Belə ki, o, qeyd edir ki, zərərçəkənin keçirdiyi mənəvi iztirab və fiziki narahatlığı formasında mənəvi ziyanın ödənilməsi yol verilməzdir. Yol qəzası nəticəsində uşağını itirmiş ananın itkisi nə qədər böyük olsa da, bu itkini pulla konpensasiya etmək mümkün deyil. Lakin insanın aktiv həyat imkanlarının məhdudlaşdırılması ilə əlaqədar mənəvi ziyan mümkündür. Əgər bu hallarda insanın keçirdiyi mənəvi iztirabı pulla ölçmək mümkün deyilsə, belə olan halda zərərçəkənin həyatmı yüngülləşdirmək üçün zərər vurandan müəyyən məbləğin tutulması yolverilləndir. Məsələn, zərərvuranın hesabına əlillik nəticəsində teatra və ya kinoya getmək imkanını itirmiş şəxs üçün televizor əldə etmək olar və s. (12, 51-52).

Hüquqşünas alimlər Malein və Erdelevski isə bu mövqedən çıxış edirlər ki, mənəvi ziyanın ödənilməsi ekvivalent prinsip əsasında deyil, hər bir konkret iş üzrə zərərin xarakteri, zərərçəkən və zərərvuranın əmlak vəziyyəti və digər xüsusi faktorlar nəzərə alınaraq həyata keçirilməlidir.

İlk öncə mənəvi ziyanın anlayışını açmağa çalışaq. Bu zaman biz həm qanunvericiliyin, həm də nəzəriyyənin mövqeyinə əsaslanmalıyıq.

Mülki hüququn qanunvericilik bazasını təşkil edən Mülki Məcəllə mənəvi ziyan institutundan yan keçir. Belə ki, baxmayaraq ki, Mülki Məcəllənin 1-ci maddəsi mülki hüquq subyektlərinin şəxsi qeyri-əmlak münasibətlərini tənzimləməyi, fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu, şəxsi həyatının və şəxsi toxunulmazlığının müdafiəsi hüququnu qorumağı öz vəzifəsi kimi müəyyən edir, lakin bu hüquqların pozulması nəticəsində vurula biləcək mənəvi

ziyan institutunu 21-ci maddədə zərərin anlayışını verərkən nəzərdə tutmayıb. 21.2-ci maddədə qeyd edilir ki, zərər dedikdə - hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakdan məhkum olması və əmlakın zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlir (əldən çıxmış fayda) başa düşülür. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin «Mülki Məcəllənin 21 və 23-cü maddələrin şərh edilməsinə dair» Qərarı 21.2 maddəni şərh edərkən, belə nəticəyə gəlir ki, bu maddədə nəzərdə tutulmuş zərər real zərər və əldən çıxmış faydadan ibarət olmaqla şəxsin hüquqlarının pozulması nəticəsində yaranan maddi zərərin ödənilməsinin ümumi qaydaları kimi qəbul oluna bilər.

Qeyd edək ki, MM-nin 23.4 maddəsində şərəfini, ləyaqətini və işgüzar nüfuzunu ləkələyən məlumatlar yayılmış fiziki şəxsin həmin məlumatların təkzibi ilə yanaşı, onların yayılması nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ zərərdə tutulur (Bu qaydalar həmçinin hüquqi şəxsin işgüzar nüfuzunun müdafiəsinə də tətbiq edilir). Lakin burada zərərin maddi, yaxud mənəvi zərər olduğu birbaşa qeyd edilmir. Yalnız ayrı-ayrı qanunlarda (bu qanunlar aşağıda şərh olunacaq) mənəvi ziyanın ödənilməsini nəzərdə tutan maddələr mövcuddur. Bu qanunlar isə mənəvi ziyanın anlayışmı açmır. Lakin AR Ali Məhkəməsinin Plenumunun «Şərəf və ləyaqətin müdafiəsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında» 14 may 1999-cu il Qərarı, həmçinin AR Konstitusiya Məhkəməsinin «AR Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair» 31 may 2002-ci il Qərarı mənəvi ziyanın anlayışmı fiziki və mənəvi iztirab (sarsıntı) kimi verir. AR Konstitusiya Məhkəməsinin müvafiq Qərarı qeyd edir ki, mənəvi zərər* adətən vətəndaşların şəxsi qeyri-əmlak hüquqlarının pozulması nəticəsində əmələ gəlir. Mənəvi zərər qeyri-əmlak zərəri olmaqla, iqtisadi məzmun və dəyər kəsb etməyən hüquq pozuntusudur. Belə zərər vətəndaşa anadangəlmə və ya qanun əsasında ona məxsus olan qeyri-maddi nemətlərə aid (şərəf, ləyaqət, işgüzar nüfuz, şəxsi ailə sirri, hərəkət etmək azadlığı, yaşayış yeri seçmə, ad hüququ, müəlliflik hüququ, sair şəxsi qeyr-əmlak hüquqlar və digər maddi nemətlər) hüquqlarını pozmaqla fiziki şəxsə mənəvi sarsıntı, iztirab verir.

Mənəvi ziyan zərərçəkənin mənəvi sabitliyinə mənfi təsir göstərir, mənəviyyatla hüquq isə kifayət qədər ümumi cəhətlərə malikdirlər (9, 71-73). Hər iki məfhum insanların cəmiyyətdə davranışını tənzimləyən bir-biri ilə əlaqəli qayda və normanı əhatə edir. Lakin mənəviyyat yalnız cəmiyyətdə təşəkkül taparaq inkişaf edən ictimai anlayışdır. Hüquq isə birbaşa dövlətin fəaliyyəti ilə bağlıdır.

Bu baxımdan Rusiya Federasiyasının qanunvericiliyi mənəvi ziyan anla-

---

* AR Konstitusiya məhkəməsinin «AR MM-in 21 və 23-cü maddələrinin şərh edilməsinə dair» 31 may 2002-ci il qərarı məhz MM-nin mövqeyində yanaşaraq «mənəvi ziyan» anlayışını işlədir. Belə ki, MM-in 21-ci maddəsi hüququ pozulan şəxsə vurulan itkini məhz zərərlə ifadə edir.

yışını daha da açıq izah edir. Belə ki, RF Ali Məhkəməsinin Plenumunun «Mənəvi ziyanın kompensasiyası barədə qanunvericiliyin tətbiqinə dair bəzi məsələlər haqqında» 20 dekabr 1994-cü il Qərarına (13, 216) əsasən mənəvi ziyan vətəndaşa anadangəlmə və qanun əsasında məxsus olan qeyri-maddi nemətlərə (həyat, sağlamlıq, şəxsin şərəfi, işgüzar nüfuzu, şəxsi həyatın toxunulmazlığı, şəxsi və ailə sirri və s.) onun qeyri-əmlak (öz adından istifadə hüququ, müəlliflik və əqli fəaliyyətin nəticələrinin müdafiəsi haqqında müvafiq olaraq digər hüquqlar) və əmlak hüquqlarını pozan hərəkətlə (hərəkətsizliklə) vurulan mənəvi və fiziki iztirabdır. RF-nın Mülki Məcəlləsinin 151.1 maddəsi mənəvi ziyan dedikdə, fiziki və mənəvi iztirab nəzərdə tutur (13, 216). Rusiya mülki qanunvericilyində mənəvi ziyanın anlayışının bu cür verilməsi heç də təsadüf deyil. Uzun illər yazılan elmi yazıların və məhkəmə təcrübəsinin nəticəsidir. Baxmayaraq ki, RF də AR kimi yalnız Sovet İttifaqı dağıldıqdan sonra mənəvi ziyan anlayışını qanunvericilikdə geniş qeyd etməyə başlayıb. RF-nın MM-si bizə bunu deməyə əsas verir ki, RF-nın qanunvericiliyi bu sahədə AR-nı qabaqlamışdır. Belə ki, RF-da mənəvi ziyanın anlayışı və onun ödənilməsi qaydası mərkəzləşmiş qaydada MM-nin müvafiq fəsil və paraqraflarında öz əksini tapmışdır (bizim Mülki Məcəlləmizdən fərqli olaraq). Ona görə də, bizə həm ərazi, həm də qanunvericilik baxımından yaxın olan ölkənin uzun illər hüquqi konsepsiyalarına həmin ölkənin özü üçün də yeni olan «mənəvi ziyan» institutu baxımından da əsaslanmağımız daha məqsədəuyğundur.

AR Konstitusiya və Ali Məhkəməsinin yuxarıda adı çəkilən müvafiq Qərarları mənəvi ziyanı fiziki və mənəvi iztirab kimi müəyyən edir. Aydındır ki, bu cümlədə işlədilən iztirab sözü müəyyənedici xarakterə malikdir. İztirab zərərvuranın hərəkətlərinə zərərçəkmişin şüurunun mənfi psixoloji reaksiyasıdır. Bununla belə, qanunla qorunan nemətlərdə xoşagəlməz dəyişikliklər hiss etmə (fiziki iztirab) və təsəvvür (mənəvi iztirab) formasında özünü göstərir (8, 160). Demək olar ki, istənilən hüquqa zidd əməl bu və ya digər dərəcədə insana mənəvi iztirab verə bilər. Əgər bir qədər geniş yanaşsaq, «sağlamlığa vurulan ziyanla» «mənəvi ziyanı» bir vahid «qeyri-əmlak zərəri» anlayışında birləşdirə bilərik. Terminologiya vahidliyini təmin etmək üçün ilk öncə «sağlamlıq» anlayışını açmaq lazımdır. Bunun üçün Ümumdünya Səhiyyə Təşkilatının verdiyi anlayışa nəzər salaq. «Sağlamlıq -bütövlükdə sosial, psixi və fiziki rifah halıdır» (16, 160). Hüquqa zidd əməl ümumi halda subyekti rifahın yuxarıda göstərilən hər hansı bir elementindən məhrum edir.

Buradan görünür ki, «Sağlamlığa vurulan ziyanla» «iztirab» ümumi çıxış nöqtəsinə malikdirlər. Belə ki, insan iztirab keçirərkən öz psixi rifahını itirir.

Fiziki və mənəvi iztirabı belə izah etmək olar ki, məsələn, şəxs haqqında həqiqətə uyğun olmayan ləkələyici məlumatın yayılması nəticəsində mənəvi iztirab çəkir. «İlkin mənəvi ziyan» - bunun nəticəsində fiziki ağrılarla müşayiət olunan kəskin qan təzyiqinin yüksəlməsi (fiziki iztirab formasında təzahür edər sonrakı mənəvi ziyan) xəstəliyinə tutulur (8, 13).

Terminologiyanın dəqiq müəyyən olunması ziyanın növünü və ödənilməsini fərqləndirməyə imkan verir. Belə ki, zərərin (ziyanın) üç növü müəyyən edilir: - fiziki zərər - maddi zərər olub, eyni zamanda qeyri-əmlak xarakterlidir. Hər hansı xarici təsir nəticəsində maddi formada baş verən neqativ dəyişikliklərdir. Bu cür neqativ dəyişikliklər şəxsin psixikasında və ya əmlak vəziyyətində hər hanı xoşagəlməz dəyişikliyi doğura bilər. Psixikada baş verən dəyişikliklər iztirabın hər iki formasında (bütünlükdə - mənəvi ziyan), əmlak vəziyyətindəki neqativ dəyişikliklər isə - real zərər və əldən çıxmaz fayda formasında təzahür edə bilər. Beləliklə, faktiki olaraq istənilən fiziki zərər (zərərin ödənilməsi: mülki - hüquqi tənzimetmənin əsas vəzifələrindəndir) mənəvi və əmlak zərəri ilə müşayiət oluna bilər. Məsələn, avtomobil qəzası nəticəsində şəxs ayağını itirir. Ona fiziki zərər yetirilir (ayağını itirir). Bu fiziki zərər şəxsi şikəst edərkən, o cümlədən yaranın sağalma prosesində ağrı hissləri ilə müşayiət olunan fiziki iztirab doğurur. Eyni zamanda əvvəlki həyat fəaliyyətinə qayıtmasının qeyri-mümkünlüyünü dərki, keçmiş işinin itirilməsi ona mənəvi iztirab verir. Nəticədə keçirilən mənəvi və fiziki iztirablar zərərvurma üçün məsuliyyətin digər şərtləri ilə birlikdə mənəvi ziyanın yetirilməsini və buna görə mülki hüquqi öhdəlik müəyyən edir.

Bununla belə, mövcudluğunu təmin etmək, normal insana layiq həyat şəraiti sürmək və hərəkət etmək üçün zərərçəkən protez sifariş edir, əlillik arabası alır və onun əlillik vəziyyətinin məcbur etdiyi digər pullu xidmətlərə müraciət etməli, bir sözlə, MM-nin 21.1 maddəsinə əsasən pozulmuş hüququnu bərpa etmək üçün xərc çəkməli olur (real zərər). Bundan başqa işini itirməklə əldə edəcəyi gəlirdən (əldən çıxmı fadya) məhrum olur. Beləliklə, konkret misalda şəxs bütövlükdə itkini (buna həm fiziki zərər, həm əmlak zərəri, həm də mənəvi ziya daxildir) ödənilməsini tələb etmək hüququ əldə edir.

Yuxarıdakı analiz mənəvi ziyanın və onun ödənilməsinin ən optimal və qəbul edilən nəticələrini müəyyən edir. Əslində bu konseptual yanaşma Konstitusiya Məhkəməsinin müvafiq Qərarının mahiyyətindən də çıxır. Belə ki, qərarın bir bəndində qeyd edilir ki, mənəvi ziyan həm vurulmuş əmlak zərəri ilə birlikdə, yaxud əmlak zərəri olmadığı hallarda konpensasiya edilir.

Yuxarıda qeyd olunduğu kimi, mənəvi ziyan mülki hüquqi kateqoriyadır. Lakin AR qanunvericiliyi mənəvi ziyan məsələsinə iki baxımdan yanaşır. Birincisi, mənəvi ziyan mülki hüquq pozuntusu olduğundan mülki məsuliyyət yaradır. İkincisi, AR Cinayət Məcəlləsinin 147 və 148-ci maddələri şəxsə dəyən mənəvi ziyana görə həm də cinayət məsuliyyəti nəzərdə tutur. Cinayət Məcəlləsinin 147 və 148-ci maddələrinin nəzərdə tutduğu böhtan və təhqir şəxsin şərəf və ləyaqətini ləkələyən məlumatların qəsdən yayılmasını nəzərdə tutur. Bu iki məsuliyyət formaları arasında həddin müəyyən edilməsi də əsas problemli məsələlərdən. Bəzi müəlliflər bu həddi yalnız cinayət məsuliyyəti üçün nəzərdə tutulan cərimə məbləği ilə müəyyən edir, bəziləri bunu cinayət tərkibinin əlamətləri ilə (şəxsin şərəf və ləyaqətini ləkələyən məlumatların yayılmasının ci-

nayət hüquqi məsuliyyət yaratması üçün əməldə cinayət tərkibinin bütün əlamətlərinin olması kifayətdir) (10, 352), digərləri isə bu həddi yalnız təqsirin forması ilə müəyyən etməyi təklif edirlər (15, 734). Belə ki, cinayət məsuliyyətinin yaranması üçün mütləq təqsirin qəsd forması mövcud olmalıdır, mülki hüquqi məsuliyyət isə bunu tələb etmir. Lakin bununla belə, hələ ki nə nəzəriyyə, nə də ki qanunvericilik bu həddi müəyyən etməkdə vahid fikrə gələ bilməyib.

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan Respublikası MM-si RF MM-dən fərqli olaraq, nəinki bu sahədə vahid tənzimetməni müəyyən etmir, hətta ziyanın bir forması kimi mənəvi ziyan anlayışının adını çəkmir, bunu yalnız təfsir vasitəsilə MM-nin ayrı-ayrı maddələrinin mahiyyətindən çıxarmaq olar. Deməli, mənəvi ziyana görə mülki hüquqi məsuliyyətin yaranması əsasən ilk öncə MM təşkil edir. Belə ki, MM-nin 21, 23 maddələri, o cümlədən 59, 60 və 61 fəsilləri vahid zərər anlayışından istifadə etsələr də, bu heç də bəzi qeyri-əmlak hüquqlarının pozulmasına görə, mənəvi ziyanı istisna etmir. Bununla belə, AR qanunvericiliyində elə normativ hüquqi aktlar vardır ki, onlar mühüm hüquqi tənzimetməni nəzərdə tutsalar da, MM-də məcəllələş-dirilməyib, ayrıca qanunlar formasında mövcuddurlar. Mənəvi ziyanın ödənilməsinin əsasını təşkil edən belə qanunlardan biri «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» AR Qanunudur. Bu qanunun 12-ci maddəsi birbaşa qeyd edir ki, istehlakçıların bu qanunda nəzərdə tutulan hüquqları istehsalçı (icraçı, satıcı) tərəfindən pozularsa, istehlakçıya dəyən mənəvi ziyan günahkar tərəfindən ödənilməlidir. Ödənilən ziyanın dəyəri qanunla başqa hal nəzərdə tutulmayıbsa, məhkəmə tərəfindən müəyyən edilir. Həmin qanunun 1-ci maddəsinə əsasən istehlakçı - şəxsi tələbatını ödəmək məqsədilə mal, iş və xidmətlərdən istifadə edən, onları alan, sifariş verən, yaxud almaq və ya sifariş vermək niyyəti olan şəxsdir. Bütün sadalanan hərəkətləri etmək üçün isə istehlakçı ilk növbədə müqavilə bağlamalıdır. Qanunun 12-ci maddəsinə əsasən əgər qarşı tərəf qanunda göstərilən hüquqları ilə əlaqədar müqavilənin hər hansı şərtini pozarsa, istehlakçı qarşısında bütün digər delikt növləri ilə yanaşı, həm də mənəvi ziyana görə məsuliyyət daşıyır. AR qanunvericiliyində bu məsələ təqdirəlayiq hal hesab olunmalıdır. Bu o deməkdir ki, mənəvi ziyan müqavilə öhdəliyi olmasa da, müqavilə şərtinin pozulması, onun yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsi şəxsə dəyən mənəvi ziyanın ödənilməsi üçün əsasdır.

«Reklam haqqında» 3 oktyabr 1997-ci il Qanunu mənəvi ziyan anlayışını istifadə etməsə də, müvafiq qanunun 30.2-ci maddəsi bunu deməyə əsas verir ki, reklam qanunvericiliyinin pozulması da mənəvi ziyanın ödənilməsi üçün əsasdır. Belə ki, 30.2-ci maddəyə əsasən haqsız reklam nəticəsində hüquqları pozulmuş şəxslər şərəf və ləyaqətinin qorunması və vurulan zərərin ödənilməsi iddiası ilə müvafiq məhkəməyə müraciət edə bilər. Burada nəzərdə tutulan şərəf və ləyaqət şəxsi hüquqlar olub, pozulmalarına görə mənəvi ziyan müəyyən edirlər.

«Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» 5 iyun 1996-cı il tarix-

li Qanunun tənzimetmə obyekti olan müəlliflik (elm, ədəbiyyat və incəsənət əsərləri) və əlaqəli hüquqların (ifalar, fonoqramlar, efır və kabel yayımı təşkilatlarının verilişləri) şəxsi qeyri-əmlak hüquqları olduğu heç kimdə şübhə doğurmur. Lakin bu qanunda tənzimetmə obyektini təşkil edən hüquqların pozulmasına görə, mənəvi ziyan nəzərdə tutulmur. Bununla belə, bu heç də o demək deyildir ki, bu, şəxsin ona dəyən mənəvi ziyanın ödənilməsini tələb etmək hüququndan məhrum edir.

Mənəvi ziyanın ödənilməsini birbaşa nəzərdə tutan qanunlardan biri də, «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxsə vurulmuş ziyanın ödənilməsi haqqında» AR-nın 29 dekabr 1998-ci il Qanunudur. Qanunun 1-ci maddəsinə əsasən AR təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanları tərəfindən hər hansı şəxsin qanunsuz olaraq:

- tutulması, təqsirləndirilən şəxs qismində cəlb edilməsi, həbsə alınması və saxlanılması, məhkum olunması, əmlakın müsadirə olunması;

- barəsində olan cinayət işinin istintaqı ilə əlaqədar götürmə və axtarış aparılması, əmlak üzərinə həbs qoyulması, işdən (vəzifədən) kənarlaşdırılması və ya onun hüquqlarını məhdudlaşdıran digər prosessual hərəkətlərin həyata keçirilməsi;

- barəsində əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi;

- barəsində islah işləri, inzibati həbs və ya cərimə növündə inzibati tənbeh tətbiq edilməsi nəticəsində həmin şəxsə vurulmuş mənəvi ziyan ödənilməlidir.

Həmin qanunun 7.1-ci maddəsi mənəvi ziyana aşağıdakı kimi anlayış verir: şəxsin barəsində mənfı fikrin formalaşmasına, onu əhatə edən şəxslərlə münasibətlərinin pisləşməsinə gətirib çıxaran və digər mənəvi xarakterli mənfi nəticələr mənəvi ziyan hesab edilir.

Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində şəxsə vurulmuş mənəvi ziyan mülki qanunvericilikdə nəzərdə tutulan qaydada ödənilir. Bu qanuna əsasən mənəvi ziyanın ödənilməsi əsasını həm də «Əməliyyat-axtarış fəaliyyəti haqqında» 28 oktyabr 1998-ci il Qanunu (mad.21), o cümlədən AR Cinayət-Prosessual Məcəlləsinin V fəsli (1 sentyabr 2000-ci il) təşkil edir.

AR-nın 1 iyul 1999-cu il Əmək Məcəlləsi də işçilərə işəgötürən tərəfindən vurulan mənəvi ziyanın ödənilməsini nəzərdə tutur. Əmək Məcəlləsinin 290-cı maddəsinə əsasən mənəvi ziyan - işəgötürən və ya onun tabeçiliyində olan vəzifəli şəxs tərəfındən hər hansı üsulla işçinin şərəf və ləyaqətinin ləkələnməsi, alçaldılması, ona böhtan atılması, şəxsiyyətinin təhqir edilməsi, kollektiv arasında gözdən salınması məqsədilə barəsində həqiqətə uyğun olmayan yalan məlumatlar yayılması, habelə mənəviyyatına, əxlaq normalarına, milli qürur hissinə, etiqadına zidd olan digər əməllər və hərəkətlər başa düşülməlidir. İşçiyə dəyən mənəvi ziyan pul hesabı ilə məbləği, onun ərizəsi əsasında, vuru-

lan mənəvi ziyanın ictimai təhlükəlilik dərəcəsinə, işçinin və işəgötürənin şəxsiyyətinə, işin faktiki hallarına və ədalətli qərar qəbul edilməsi üçün zəruri olan digər obyektiv hallara uyğun olaraq məhkəmə tərəfindən müəyyən edilir.

Lakin əgər Azərbaycanda olan məhkəmə təcrübəsinə nəzər salsaq, görərik ki, mənəvi ziyanın ödənilməsi məsələsi əsasən kütləvi informasiya vasitələrində şəxsin şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyən məlumatların yayılması ilə əlaqədardır. Təbii ki, bir qanun üzərində təmərküzləşmə diqqətəlayiq hal deyildir. Lakin bununla belə, mənəvi ziyanın ödənilməsi əsası kimi «Kütləvi informasiya vasitələri haqqında» 7 dekabr 1999-cu il Qanunu böyük əhəmiyyətə malikdir. Belə ki, Qanunun 10.1-ci maddəsinə əsasən şəxsin şərəf və ləyaqətini alçaldan şayiələr, yalan və qərəzli yazılar və digər nəşr olunması qanunla qadağan olunan yazıların yayılması yolverilməzdir. Belə olan halda, zərərçəkənin öz seçimi ilə hər hansı KİV-də təkzib, düzəliş və cavab vermək hüququ var. Lakin zərərçəkənin bu hüquqları ona dəyən mənəvi ziyanın ödənilməsini tələb etmək hüququnu istisna etmir. Bu zaman başqasının şərəf və ləyaqətini ləkələyən məlumatların doğruluğunu sübut etmək vəzifəsi iddiaçının deyil, cavabdehin üzərinə düşür.

Bu təhlildən belə nəticə çıxarmaq olar ki, mənəvi ziyan məsələsi AR qanunvericiliyində hələ də öz hərtərəfli və vahid əksini tapmayıb, vahid tənzimləmə üsuluna keçmək daha məqsədəuyğundur, bu həm də məhkəmə təcrübəsi üçün bəzi çətinlikləri aradan qaldırmağa kömək edər.

### ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2013
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Hüquq ədəbiyyatı nəşriyyatı, Bakı: Digesta, 2013.
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin kommentariyası. İ.Q. Əsgərov. Bakı: Qanun, 2011.
4. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişiklik edilməsi haqqında qanunu // Yeni sənədlər bülleteni. Bakı, 2008.
5. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi: 20.08.2008-ci ilə qədər olan əlavə və dəyişikliklərlə / nəşrə məsul Ş. Xuduoğlu. Bakı: Qanun, 2008, 528s.
6. AR-nın Konstitusiya Məhkəməsinin «Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair» 31 may 2002-ci il tarixli Qərarı.
7. AR-nın Ali Məhkəməsinin Plenumunun «Şərəf və ləyaqətin müdafiəsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında» 14 may 1999-cu il tarixli Qərarı (35).
8. «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında» 5 iyun 1996-cı il tarixli Qanun.
9. «Əməliyyat-axtarış fəaliyyəti haqqında» AR-nın 28 oktyabr 1998-ci il tarixli Qanunu.
10. Борисов А.Б. Комментарий к гражданскому кодексу РФ. М: 2001, 424с.
11. Котов Б.А. Защита предпринимателей. Норма, М.: 2001. 218 с.
12. Мепаришвили Г.Д. О неприкосновенности личной документации граждан в уголовном процессе // Государство и права. 1996, №1, с 32-41.
13. Моральная регуляция и личность. Под ред. Титаренко А.И. М. :наука 1982, 180с
14. Петрухин И.Л. Личные тайны (Человек и власть). М. : 1998
15. Селектор М.З. Право и нравственность // Вопросы философии. 1954, №2, с182
16. Усаков В. Как компенсировать моральный вред богатому и бедному //Российская юстиция, 2000, №12
17. Fuller and Eisenberg. Basic Control Law // West Publishing Go. 1999

## НЕКОТОРЫЕ ПРОБЛЕМЫ ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ МОРАЛЬНОГО УЩЕРБА КАК ОДНОГО ИЗ ВИДОВ УЩЕРБА

**Ш.М.ЮСИФОВ**

Честь, достоинство и деловая репутация являются главными качествами, характерными для формирования человека как личность в обществе. Каждый человек имеет право требовать выплаты морального ущерба в связи с нарушением его /ее неимущественных прав. Плата за моральный ущерб является требование современного, демократического общества. Именно в этой статье вы можете найти исследование проблем, касающихся оплаты за моральный ущерб, часто встречающихся и в теории, и в практике,а также проблемы, решение которых еще однозначно не найдено.

**Ключевые слова**: честь, достоинство, деловая репутация, моральный ущерб, компенсации.

## SOME PROBLEMS OF LEGAL REGULATION OF MORAL DAMAGE AS A PART OF DAMAGE

**Sh.M.YUSIFOV**

### SUMMARY

Honor, dignity and goodwill are the main qualities characterizing the formation of an individual's personality in a civil society. Every person has a right to claim the payment for moral damage due to the breach of his/her non-property rights. The payment for moral damage is the demand of modern, democratic society. In this article namely, problems frequently met in both theory and practice regarding the payment for moral damage and ones which have not been yet uniquely solved are researched.

**Key words** : honor, dignity, goodwill, moral damage, compensation.